# Əlillik yuxu görməyə əngəl deyil






**Niyaz Cəfərov**
*teatrşünas*


**"Həyatınızın hər anından yaxşı bir şeylər tapmağa çalışın və bunun üçün hər günə şükür edin. Tezliklə sizin həyata baxışınız dəyişəcək, deməк ki, həyatınız da dəyişəcək.**

***Opra Unfri***

**...Bir işi sonlandırmaq üçün başlamaq gərəkdir. Başlamaq üçün isə qarşıya məqsəd qoymaq lazımdır. Məqsəd qoymaq üçün arzulamalısan. Arzular isə cəsarət tələb edir. İki insan cəsurdur - itirməyə hazır olan və itirəcək heç nəyi olmayan. Səmimi qəlbdən doğan arzular isə əngəl tanımır və gec-tez hasil olur. ... Və onlar bizə bunu bir daha sübut etdilər...**

May ayının 2-də Britaniya səfirliyinin dəstəyi ilə Azərbaycan Teatr Xadimləri İttifaqının səhnəsində dahi U.Şekspirin "Yay gecəsində yuxu" pyesi əsasında gənc və istedadlı aktyor Şamil İbrahimovun quruluş verdiyi, digər istedadlı aktyor Nihad Qulamzadənin yönətdiyi, əsas heyəti əlilliyi olan ifaçılardan ibarət "Əsa" teatrının aktyorlarının - **Elvin Mirzəyev, Elşən Əsgərov, Nigar İsayeva, Esmeralda Abdullayeva, Nurlan Süleymanlı, Səmayə Ağayarova, Aydın Rəhimov, Gülnar Əlfidatlı, Orxan Adıgözəl, Aygün Əliyeva, Cavad Heydərli, Fuad Hüseynzadə, Muxtar Əhmədov, Fərid Əliyev** - sərgilədiyi "Yuxum" tamaşası seyirçilərə təqdim olundu. Mən də iş-gücdən, gündəlik qayğılardan azad olmaq, şirin yuxu görmək, həm də ilk dəfə olaraq "incəsənətdə sərhəd tanımayan" "Əsa" teatrının performansını izləmək məqsədilə ünvana üz tutdum...

Təsisçisi və bədii rəhbəri Nihat Qulamzadə olan Əsa teatrı 3 sentyabr 2016-cı ildə təsis edilib. İlk tamaşası - "Dumb" 20 noyabr 2016-cı ildə Xəzər Universitetinin səhnəsində nümayiş olunub.

Əsa teatrının növbəti -"Yuxum" tamaşasına köklənirik. Öncə qeyd edim ki, dahi Şekspirin bu komediyasını bədii xüsusiyyətlərinə görə səhvlər komediyası kimi xarakterizə etmək olar. Komediyanın əsas mövzusunu saf məhəbbət, ali sevgi, eləcə də bəsit fantastika təşkil edir. Tamaşanın qısa məzmunu belədir: İki afinalı gənc Lizandr və Demetriy eyni bir qıza - Hermiyaya aşiqdirlər. Hermiya Lizandrın məhəbbətinə cavab versə də, atası onun Lizandra ərə getməyinə razı deyil. Bu səbəblə gənc aşiqlər gecə ikən Afinadan qaçmağa və evlənmək üçün onlara kimsənin əngəl ola bilməyəcəyi bir məkana getməyə qərara verirlər. Hermiyanın rəfiqəsi Yelena Demetriyə olan məhəbbətindən qaçaqların məqsədini ona xəbər verir. Qəzəblənən Demetriy onların ardınca düşür, Yelena isə onu təqib edir. Meşənin dəriniklərində möcüzəli metamorfozalar gerçəkləşir. İki gənc afinalını səhv salan meşə cini Pakın səhvi nəticəsində Lizandr bir an içində sevgi obyektini dəyişərək Yelenaya aşiq olur. Pakın səhvini anlayan cinlər hökmdarı Oberon Demetrinin gözlərinə sehirli məlhəm çəkir və iki afinalı gəncin arasında Yelenanın məhəbbəti uğrunda mübarizə yaranır. Məsələnin artıq ölümlə nəticələnə biləcəyin anlayan meşə cini Pak sehirli qüvvəsini işə salaraq qəhrəmanları əfsunun təsirindən çıxarır. Onlar isə bütün baş verənlərin sadəcə bir yuxu olduğunu zənn edirlər.

Mən tamaşanı uzun-uzadı təhlil etmək, tək-tək aktyor oyununu şərh etmək niyyətində deyiləm. Zatən, onların buna ehtiyacı yoxdur. Çünki onların məqsədi bölüşməkdir, paylaşmaqdır. Mən yalnız etiraf etmək niyyətindəyəm... Mən yalnız heyrət etmək niyyətindəyəm... Mən yalnız qibtə etmək niyyətindəyəm.

Mən öz nəzərimdə tamaşada görmək istədiyim hər şeyi gördüm. Maraqlı quruluş, maraqlı aktyor oyunu, yerində və dəqiq düşünülmüş ştrixlər... Ən əsası hər bir aktyorun ifasında məhəbbət gördüm... Səhnədə var olmaq, yaşayıb yaratmaq eşqi ilə döyünən bir qəlbdə alovlanan məhəbbət gördüm... Cəsarət gördüm... Zəncirləri qıran, sərhədləri aşan, bütün dünyaya "mən də varam" deyə hayqıran cəsarət gördüm...

"Yuxum"u izlədikcə yatdığım yuxudan bir daha oyandım, anladım, dərk etdim... Sənət əngəl tanımır. Arzular əngəl tanımır. Ali məqsəd əngəl tanımır. İnsanın qəlbi yaratmaq, var etmək, yaşatmaq eşqilə alovlandıqca əlilliyi, fiziki qüsuru ona mane ola bilməz. Həqiqətdə fiziki qüsura bir əngəl, bir maneə kimi baxanlar, qarşılarına məqsəd qoymağa, arzulamağa qorxanlardır - əlillər. Həqiqətdə ən böyük qüsur mənəvi zəiflikdir.

"Yuxum"u izlədikcə qəlbimin dərinliklərində əngəl tanımayan cəsarətin, sönməyən məhəbbətin alovlandığını duydum.

"Yuxum"u izlədikcə utandım... Fiziki məhdudiyyətli gənclərin çərçivələrə sığmayan, sərhəd tanımayan oyununu izlədikcə utandım... Gündə 9 saat işləyib yorulan kimi az qala həyatdan küsən, özünü tükənmiş hiss edən mən və mənim kimi "sağlamlar"ın adına utandım.

"Yuxum"u izlədikcə fəxr etdim... Əngəl tanımayan sənətlə fəxr etdim... Arzuları uğrunda savaşan gənclərlə fəxr etdim... Onları tanıdığım üçün fəxr etdim...

"Yuxum"u izlədikcə nəticəyə gəldim... **Bir işi sonlandırmaq üçün başlamaq gərəkdir. Başlamaq üçün isə qarşıya məqsəd qoymaq lazımdır. Məqsəd qoymaq üçün arzulamalısan. Arzular isə cəsarət tələb edir. İki insan cəsurdur - itirməyə hazır olan və itirəcək heç nəyi olmayan. Səmimi qəlbdən doğan arzular isə əngəl tanımır və gec tez hasil olur. Və onlar bizə bunu bir daha sübut etdilər...**

Sonda mən "Yuxum" tamaşasında əməyi keçən hər kəsə tək-tək - quruluşçu rejissor Şamil İbrahimova, rejissor Nihad Qulamzadəyə, rəssam Ülviyyə Mikayılovaya, geyim rəssamı Leyla Əliyevaya, musiqi tərtibatçısı Aydın Rəhimova, işıq rəssamı Bünyamin Sailova və aktyorlar Elvin Mirzəyev, Elşən Əsgərov, Nigar İsayeva, Esmeralda Abdullayeva, Nurlan Süleymanlı, Səmayə Ağayarova, Aydın Rəhimov, Gülnar Əlfidatlı, Orxan Adıgözəl, Aygün Əliyeva, Cavad Heydərli, Fuad Hüseynzadə Muxtar Əhmədov, Fərid Əliyevə-səmimi qəlbdən təşəkkürümü bildirir, heyəti premyera münasibətilə təbrik edir və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

